# Gədəbəyin inkişafını görməmək mümkün deyil



❒ ***Son illər Gədəbəyin inkişafını görməmək mümkün deyil. Bu ucqar dağ rayonunda yollar, körpülər çəkilib, binalar təmir edilib, yeni məktəb, səhiyyə ocaqları inşa olunub, park və xiyabanlar salınıb. Bütün bunlar Gədəbəyə daxil olan hər kəsin diqqətini elə ilk andan cəlb edir. Rayonda birmənalı şəkildə etiraf edirlər ki, bu, ölkə Prezidentinin Gədəbəyin problemlərinin həllinə qayğı və yaxından kömək göstərməsi ilə əlaqədardır. Elə dövlət başçısının son illərdə Gədəbəyə bir neçə dəfə səfər etməsi də deyilənlərə əyani sübutdur.***



Digər tərəfdən, rayon rəhbərliyi burada əhalinin qayğıları ilə daha yaxından məşğul olur, hər cür neqativ hallara qarşı mübarizə aparır, tez- tez müxtəlif yaşayış məntəqələrinə baş çəkir, əhali ilə görüşür, vəziyyəti dərindən öyrənir, müvafiq tədbirlər görür. 2016-cı ilin ötən ayları ərzində də belə olmuşdur. Rayonda sosial-iqtisadi inkişafla və infrastrukturun yaradılması ilə bağlı həyata keçirilən işlər davam etdirilmişdir. Belə ki, vətəndaşların çoxsaylı müraciətləri əsasında 156 nəfərlik Mərasim zalı tikilərək istifadəyə verilmiş,rayon mərkəzində ümumi sahəsi 4500 kvadratmetr olan yeni istirahət parkının, kənd təsərrüfatı və baytarlıq idarəsinin inzibati binasının tikintisi isə başa çatmaq üzrədir.Şəhərdə dördmərtəbəli inzibati bina aqlay materialı ilə üzlənmiş və işıqlandırma sistemi quraşdırılmışdır. Şəhərin Heydər Əliyev prospektində, M.Paşayev, Z.Əliyeva,V.Rüstəmov və M.Rəsulzadə küçələrində asfalt işləri aparılmışdır. Bayraq meydanının tikintisi üçün hazırlıq işlərinə başlanılıb. Rayonun 5 yaşayış məntəqəsini birləşdirən, 7 min nəfər əhalinin istifadə etdiyi 9 kilometr uzunluğunda olan Novosaratovka-Çobankənd-Novoivanovka avtomobil yolunun tikintisi başa çatmışdır. Eyni zamanda, Azərbaycan Kənd İnvestisiya Layihəsi-2 çərçivəsində rayonun Xarxar, Mormor, Zəhmətkənd, Cücənli, Gərgər, Qasımlı, Çay Rəsullu və Qaradağ kəndlərində 102,3 kilometr kəndarası yollar təmir edilmişdir.

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda Gədəbəy rayonunun inkişafını təmin edən 17 tədbirin icrası nəzərdə tutulmuşdur.Hesabat dövrü ərzində proqramın icrası ilə bağlı müvafiq tədbirlər həyata keçirilmişdir.

Rayonda sahibkarların normal fəaliyyəti üçün şərait yaradılmış və bu sahənin inkişafına dəstək verilmişdir. Keçirilən tenderlərdə şəffaflığın təmin olunması,kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması üçün münbit şəraitin yaradılması, kənd təsərrüfatında islahatların genişləndirilməsi, yerli infrastruktur layihələrinin icra olunması, yeni istehsal və emal müəssisələrinin açılması, məşğulluq səviyyəsinin artırılması və əhalinin maddi rifahının yüksəldilməsi ilə bağlı əməli tədbirlərin görülməsi istiqamətində ölkə rəhbərinin verdiyi tapşırıqların icrasına başlanılmış və bu istiqamətdə işlər davam etdirilir.

Rayon icra hakimiyyəti başçısının bu ilin fevralında yaratdığı qərargah məqsədyönlü fəaliyyətini davam etdirir. 2016-cı ilin ötən dövründə Zəhmətkənddə “Gədəbəy mineral sular” MMC-nin ən müasir texnologiya ilə təchiz edilmiş limonad istehsal edən ikinci istehsal sahəsi, Arıqdam kəndində 175 nəfərin işlədiyi “Anar” MMC-yə məxsus yeni bazar kompleksi, “Yaşıl market”, Qaraməmmədli və Kiçik Qaramurad kəndlərində xidmət obyektlərinin yaradılması istiqamətində işlər başa çatmış,Gədəbəy şəhərində çörək və şirniyyat bişirmə müəssisəsinin, Slavyanka kəndində daha bir istirahət kompleksinin, Zəhmətkənddə bir-neçə profil üzrə əhaliyə xidmət edə bilən sahibkarlıq subyektlərinin və Maarif kəndində “Kiçik Qafqaz” MMC-yə məxsus süfrə suları istehsalı müəssisəsinin, Miskinli və Əlinağılar kəndlərində isə xidmət və iaşə obyektlərinin tikintisi davam etdirilir. İstehsal və xidmət sahələrinin fəaliyyəti nəticəsində 214 iş yeri yaradılmış və daha 182 iş yerinin yaradılması nəzərdə tutulur.



Rayonun iqtisadiyyatının əsasını kartofçuluq və heyvandarlıq təşkil etdiyi üçün bu sahənin daha da inkişaf etdirilməsi istiqamətində işlər aparılır. Bu məqsədlə məhsul istehsalçılarına lazımi dəstək verilmiş və müvafiq kömək göstərilmişdir. Cari ilin iyun ayında kənd təsərrüfatı məhsullarının istehsalının artırılması ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında yaradılmış işçi qrupunun rayona səfəri səmərəli olmuşdur.

Rayon üzrə 12 min 200 hektar kartof, 1036 hektar payızlıq və yazlıq buğda, 93 hektar payızlıq və yazlıq arpa, 56 hektar qarğıdalı və 298 hektar tərəvəz əkilmişdir. Artıq məhsul yığımına başlanılmış, 103 min 981 ton kartof, 82 ton qarğıdalı və sair kənd təsərrüfatı məhsulları toplanmışdır.

Gədəbəydə əhalinin qaz, elektrik enerjisi, su problemləri də tədricən həll edilir. Hazırda rayon mərkəzində və 35 kənddə 9561 abonent təbii qazla təmin olunub. Hesabat dövrü ərzində Çanaqçı və Miskinli kəndlərinə təbii qaz verilmişdir. Ümumilikdə, rayon üzrə qazlaşmanın vəziyyəti yaşayış məntəqələri üzrə 33 faiz, ev təsərrüfatları üzrə isə 52 faiz təşkil edir. Əhali sektoruna daxil olan istehlakçıların istifadə etdikləri təbii qaza görə ödənişi 101,3 faiz təşkil etmişdir Təbii qazla təchiz olunmayan yaşayış məntəqlərində əhalinin və sosial obyektlərin istiliklə təminatı məqsədilə 2500 kubmetr odun ayrılmışdır.

Gədəbəy şəhərində su və kanalizasiya sisteminin yenidən qurulması ilə bağlı işlər davam etdirilir. Belə ki, su təchizatı ilə bağlı, ümumilikdə 32643 metr müxtəlif diametrli boru çəkilmiş, 88 ədəd yanğın hidrantı, 75 ədəd siyirtmə və 301 ədəd su sayğacı quraşdırılmışdır.Kanalizasiya şəbəkəsinin quraşdırılması ilə bağlı isə ümumilikdə müxtəlif diametrli 776 ədəd quyu inşa olunmuş, 18044 metr xətt çəkilmişdir.

Təhsilin inkişaf etdirilməsi üzrə dövlət siyasətinə uyğun olaraq rayonda bu sahəyə diqqət və qayğı yüksək səviyyədə olmuş, maddi-texniki təminatın yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilir. Hesabat dövrü ərzində 180 şagird yerlik Şınıx kənd tam orta məktəbinin tikintisinə başlanılmış, Zəhmətkənd, Maarif, Çaldaş kənd tam orta, Daşbulaq, Qaradağ kənd ümumi orta, Söyüdlü kənd ibtidai, Şahmat və Uşaq Gənclər İdman məktəbləri əsaslı təmir olunmuşdur.

Səhiyyə, mədəniyyət, idman və digər sahələrin də işində ciddi dönüş var. Yeni obyektlər tikilib istifadəyə verilir, mövcud müəssisələr təmir olunur, kadr potensialı gücləndirilir.

Gədəbəy inkişaf edir, böyüyür və gözəlləşir. Burada infrastrukturun yenilənməsi, bir sıra layihələrin həyata keçirilməsi tezliklə turist axınını daha da gücləndirəcək. Hazırda rayon rəhbərliyi bu istiqamətdə bütün qüvvələri səfərbərliyə almışdır.

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti” nin***
***bölgə müxbiri***